# Sosiallaşma prosesində şəxsiyyətin sosiallaşmasının psixoloji mexanizmləri

**Mehriban İsmayılova**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti*

**Rəyçilər:** psixol.ü.f.d., dos. N.T. Rzayeva,
psixol.ü.f.d. L.M. Qurbanova

**Açar sözlər:** sosiallaşma, psixoloji mexanizm, identifikasiya, impritinq, fasilitasiya, konformluq

**Ключевые слова:** социальность, психологический механизм, идентификация, импринтинг, фоссилизация, комфортность

**Key words:** socialization, psychological mechanism, identification, imprinting, facilitate, conformity

Sosializasiya prosesində şəxsiyyətin sosiallaşmasının psixoloji mexanizmlərinə müxtəlif yanaşmalar mövcuddur. Sosial psixologiyanın yaradıcılarından olan fransız sosial psixoloqu Q.Tartın fikrincə, sosializasiya prosesində şəxsiyyətin sosiallaşmasının üç mexanizmi vardır və onlar qanundur. V.S.Muxina sosializasiya prosesində şəxsiyyətin sosiallaşma mexanizminə identifikasiyanı və şəxsiyyətin xüsusiləşməsini də aid etmişdir (1). A.V.Petrovskiy sosializasiya prosesində şəxsiyyətin sosiallaşmasının psixoloji mexanizmlərinin: sosial adaptasiyanın, xüsusiləşmənin (fərdiyyətçiliyin) və inteqrasiyanın vacib olduğunu xüsusi olaraq qeyd etmişdir.

M.İ.Şilova sosializasiya prosesində şəxsiyyətin sosiallaşma mexanizmini qarşılıqlı əlaqələr sistemi kimi: bir tərəfdən fərd (*sistemin daxili tərəfi*); digər tərəfdən isə sosiallaşma faktorları: ailə, sosial institutlar, müəssisələrin maddi təminatı və ya bütünlükdə mədəniyyət (*sistemin xarici tərəfi*) kimi xarakterizə edirdi.

Sosializasiya prosesində şəxsiyyətin sosiallaşma mexanizmləri sosial-psixoloji və sosial-pedaqoji mexanizmlərə ayrılır.

A.B.Mudrik sosializasiya prosesində şəxsiyyətin sosiallaşmasının sosial-pedaqoji mexanizmlərini belə müəyyən etmişdir: *ənənəvi* - ailə və yaxın adamların; *institusional* - cəmiyyət institutlarının; stilləşdirilmiş - submədəniyyətin; *şəxsiyyətlərarası* - əhəmiyyətli insanların; *refleksiv* -fərdiləşdirilmiş təəssüratlar və dərketmənin vasitəsi kimi (2, s. 38).

Sosializasiya prosesində şəxsiyyətin sosiallaşmasının yuxarıda adlarını çəkdiyimiz sosial-pedaqoji mexanizmlərini nəzərdən keçirək:

— Sosializasiya prosesində şəxsiyyətin sosiallaşmasının *ənənəvi mexanizmi* ailə və yaxın adamlar üçün xarakterik olan sosial normaları, davranış etalonlarını, baxışları xarakterizə edir. Sosializasiya prosesində şəxsiyyətin sosiallaşmasının institusional mexanizmi müxtəlif təşkilatlarda, institutlarda və birliklərdə, habelə insanların birgə qarşılıqlı fəaliyyətində onların sosiallaşması üçün xüsusi olaraq yaradılmış bir proses kimi həyata keçir. Burada sosiallaşmış funksiyalar digər əsas funksiyalarla birlikdə paralel olaraq reallaşır.

— Sosializasiya prosesində şəxsiyyətin sosiallaşmasının *stilləşdirilmiş mexanizmi* submədəniyyət çərçivəsində özünü göstərir. Submədəniyyət adı altında müəyyən yaş dövründə insanlar üçün tipik olan sosial dəyərlər, normalar, mənəvi-psixoloji, sosial

keyfiyyətlər və davranış kompleksi başa düşülür. Həmçinin submədəniyyət dedikdə, müəyyən yaş, peşə və sosial qrup üçün zəruri olan peşə və ya mədəniyyət üslubları nəzərdə tutulur. Şəxsiyyət digər insanlarla birgə fəaliyyət sahəsində sosial normaları və davranış qaydalarını mənimsəyir, sosiallaşaraq peşə mədəniyyətinə yiyələnir. Submədəniyyət insanın sosiallaşmasına o dərəcədə təsir göstərə bilər ki, həmin sosial qrupun adamları onun üçün referent (əhəmiyyətli) olsunlar.

— Sosializasiya prosesində şəxsiyyətin sosiallaşmasının *şəxsiyyətlərarası mexanizmi* subyektiv əhəmiyyətli insanlarla qarşılıqlı fəaliyyətdə funksionallaşır. Valideyn, sevimli müəllim, yoldaşlar və ya əks cinsin nümayəndələri buraya aid ola bilər. Şəxsiyyət müəyyən sosial qruplarda və fəaliyyətin müxtəlif sahələrində, habelə öz yaxın adamları ilə ünsiyyətdə və şəxsiyyətlərarası münasibətdə sosiallaşır.

— Sosializasiya prosesində şəxsiyyətin sosiallaşmasının *institusionallaşmış mexanizmi* istehsalat və kütləvi informasiya vasitələrinin birgə köməyi ilə həyata keçir. Yadda saxlamaq lazımdır ki, kütləvi informasiya vasitələri sosial institut kimi insanın sosiallaşmasına təkcə zəruri informasiyaların, televiziya və radioqəbuledicinin translyasiyası ilə deyil, həm də kitablarda qəhrəmanların davranış obrazları, kinofilmlər, televiziya verilişləri vasitəsilə ilə də təsir göstərə bilər. İnsanlar yaş, fərdi-psixoloji xüsusiyyətlərinə uyğun özlərini bu və ya digər qəhrəmanlarla eyniləşdirməyə, onların həyat tərzini, sosial davranış obrazlarını qəbul etməyə meyllidirlər. Belə psixoloji vəziyyət onların sosiallaşmasına da öz təsirini göstərə bilər.

— Sosializasiya prosesində şəxsiyyətin sosiallaşmasının *refleksiv mexanizmi* hər bir insanın cəmiyyətdə və sosial qruplarda sosiallaşması adları çəkilən sosial-psixoloji mexanizmlərin köməyi ilə birgə həyata keçir. Sosializasiyanın mühüm nəticələrini təmin etmək üçün kütləvi şüura təsirin effektiv vasitələri yaradılmışdır ki, bunlar da tərəqqi (proqressiv), tərbiyə, habelə inandırma, psixoterapiya və psixokorreksiya, həm də tənəzzül edən (reqressiv) insanların sosial davranışlarını idarə edən və ya başqa sözlə, "şəklini dəyişməsi"dir. Sosializasiya prosesində şəxsiyyətin sosiallaşmasının psixoloji mexanizmlərinin bəzən çox, bəzən də az sayda təsiri *refleksiya* (bu insanın "özü ilə daxili dialoqu"dur, insan gördüklərini qiymətləndirir, dəyərləri qəbul edir və s.) vasitəsilə ifadə olunur.

Sosializasiya prosesində şəxsiyyətin sosiallaşmasının bir çox sosial-psixoloji mexanizmləri həyata keçir:

— *identifikasiya* — fərdin özünü insanlarla və sosial qrupla eyniləşdirməsidir ki, bu da ona həmin qrupun üzvləri ilə müxtəlif sosial normaları, davranış formalarını və münasibətləri mənimsəməyə və sosiallaşmağa imkan verir. İdenfikasiyaya nümunə olaraq tipik cinsi rolları göstərmək olar ki, bu prosesdə fərd müəyyən cinslər üçün müvafiq olan psixi xüsusiyyətləri və davranış formalarını qazanaraq sosiallaşır. Deməli, identifikasiya prosesində fərd təqlid obyekti kimi özünü başqaları ilə eyniləşdirir və bu yolla sosial təcrübəni mənimsəyir, nəticədə sosiallaşaraq özünü sosial subyekt kimi dərk edir.

— *impritinq* — insanın həyatının ən mühüm anlarında ona güclü təsir edən qıcıqların reseptorda və beyində dərkedilmədən yadda qalmasıdır. İmpritinq əsasən körpəlik yaş mərhələlərində özünü göstərir. Bir qədər gecikmiş yaş mərhələlərində hər hansı bir obraz, duyğu insanda dərin təəssürat yarada bilir. Həmin təəssürat müsbət və mənfi olmaqla şəxsiyyətin sosiallaşmasına da öz təsirini göstərə bilər.

— *təqlid* — fərdin davranış modellərini, başqa adamların təcrübəsini (manevr, hərəkətlər, fəaliyyət) şüurlu və şüursuz olaraq təkrar etməsidir. Təqlid yaradıcı, sosial-psixoloji xarakterə malik olub müəyyən sosial vərdişlərin yaşlılar tərəfindən mənimsənilməsində bir element

kimi təzahür edir. Təqlid sosial təcrübənin mənimsənilməsi yollarından biri olub şəxsiyyətin sosiallaşmasında mühüm sosial-psixoloji təsir üsulu kimi özünü göstərir.

— *təlqin* — insanın psixikasına və davranışına psixoloji təsirdir ki, bu da fərdin informasiyaları qeyri-tənqidi qavramasını nəzərdə tutur. Təlqin informasiyanın bir çox insanlar tərəfindən qeyri-ixtiyari surətdə qavranılan, o cümlədən şəxsiyyətin şüuruna və sosial qrupa psixoloji təsir üsuludur. Təlqin qrupda şəxsiyyətin sosiallaşmasına müsbət və ya mənfi psixoloji təsir göstərə bilər.

— *fasilitasiyanın* (ingiliscə "to fasilitate" — "asanlaşdırmaq, kömək etmək" deməkdir) köməyi ilə şəxsiyyət digər insanların davranışına stimullaşdırıcı, psixoloji təsir göstərir. Nəticədə şəxsiyyətin fəaliyyəti sərbəst və intensiv şəkildə baş verir. Sosial fasilitasiya insanların sosial təmas şəraitində bir-birinə göstərdikləri müsbət sosial-psixoloji təsirdir. Bu psixoloji təsir nəticəsində insanların sosial fəallığı artır, reaksiyaları nisbətən asanlaşır, habelə sosial fəaliyyətin nəticələri yaxşılaşır, sosiallaşma yüksək səviyyədə özünü təzahür etdirir.

— *konformluq* — sosializasiya prosesində şəxsiyyətin ətrafdakıların fikirlərini daxilən anlamaqda çətinlik çəkməsi, xaricən isə davranışın reallaşmasında onlarla razılaşması, kompromis halları aydın şəkildə özünü göstərir. Belə psixoloji vəziyyət şəxsiyyətin sosiallaşmasını ləngidə və ya sürətləndirə bilər.

N.Smelzer sosializasiya prosesində şəxsiyyətin sosiallaşmasının psixoloji mexanizmlərini belə müəyyən etmişdir:

— *imitasiya* — körpəlik yaş mərhələsində uşaq davranışının müəyyən modelini şüurlu olaraq körpəyə etməyə cəhd göstərməklə sosiallaşır.

— *identifikasiya* — fərdin referent qruplarla və ya onun üçün əhəmiyyətli olan insanlarla birgə fəaliyyətdə onların davranış modellərini, dəyərlərini, normalarını öz şəxsi dəyər və normaları kimi mənimsəməsi, eləcə də emosional-koqnitiv səviyyədə sosiallaşmasıdır.

— *həya hissi* — başqa insanların reaksiyası ilə bağlı olub fərdin ifşa və rüsvayçılıqdan mütəəssir olmasıdır.

— *günahkarlıq hissi* — fərdin ifşa və rüsvayçılıqdan mütəəssir olub insanlardan asılı olmadan özünü günahlandırmasıdır.

Sosializasiya prosesində şəxsiyyətin sosiallaşmasının birinci mexanizmləri pozitiv, həya və günahkarlıq hissi isə neqativ mexanizmlərdir ki, onlar müəyyən davranışı tənzimləməyə və ya qadağan edə bilər (3, s. 180-181).

Beləliklə, sosializasiyanın psixoloji məzmunu bir tərəfdən şəxsiyyətin sosiallaşmasının mexanizmləri (ənənəvi, institutlaşdırılmış, stilləşdirilmiş, şəxsiyyətlərarası, refleksiv) vasitəsilə reallaşan psixoloji təsirlərin, digər tərəfdən isə insanın ona münasibəti ilə müəyyən edilir. Sosializasiya prosesində insanın sosiallaşması mexanizmlər vasitəsi, habelə şüurlu və şüursuz üsullarla, mənimsəmə və sosial təcrübə ilə baş verir.

E.N.Mananikov sosializasiya prosesində şəxsiyyətin sosiallaşmasının sosial-pedaqoji mexanizmlərinə aşağıdakıları aid etmişdir:

*Sosializasiyanın ənənəvi mexanizmi* insanlar tərəfindən onların ailəsi və ətrafdakılar (qonşuluq, dostluq, peşə) üçün xarakterik olan sosial davranışın norma və etalonlarının mənimsənilməsidir. Bu sosial mənimsəmə bir qayda olaraq hakimlik edən stereotiplərin təsirinin köməyilə baş verir. Bu mexanizm bir qayda olaraq mənimsəmənin və təəssüratların köməyi ilə dərkolunmaz səviyyədə, stereotiplərin üstün olduğu qeyri-tənqidi qavrayışda özünü göstərir.

*Sosializasiyanın institutlaşdırılmış mexanizmində* insan sosializasiya üçün yaradılmış, həm də sosiallaşma funksiyalarının əsas funksiyaları (yaradıcı, ictimai, müəyyən strukturlar,

kütləvi kommunikasiya vasitələri), cəmiyyətdəki institutlarla və müxtəlif təşkilatlarla əlaqəsi prosesində fəaliyyət göstərir.

*Sosializasiyanın stilləşdirilmiş mexanizmi* submədəniyyət çərçivəsindəhəyata keçir. Submədəniyyət müəyyən yaşlı və konkret peşə-mədəni təbəqədən olan insanlar üçün tipik mənəvi dəyərlər, sosial normalar və sosial davranış qaydalarının məcmusu kimi başa düşülür, bu və ya digər yaş, peşə və sosial qrupun həyat tərzini yaradır.

*Sosializasiyanın şəxsiyyətlərarası mexanizmi* insanlarla sosial əlaqə prosesində birgə fəaliyyət göstərir, empatiya və identifikasiyanın köməyi ilə şəxsiyyətlərarası psixoloji mexanizmi təsvir edir.

*Sosializasiyanın refleksiv mexanizmi* insanın daxili dialoqu ilə bağlıdır ki, insan cəmiyyətin müxtəlif institutlarına, ailəyə, həmyaşıdlarına və başqalarına məxsus olanlara baxır, onları qiymətləndirir, bu və ya digər sosial dəyərləri qəbul və ya onlardan imtina edir (4).

Hər bir insanın sosializasiya prosesində sosiallaşması adlarını çəkdiyimiz psixoloji mexanizmlərin köməyi ilə baş verir. Belə ki, müxtəlif yaş-cins, sosial-mədəni və peşə qruplarında konkret insanların sosiallaşma mexanizmlərinin rolu müxtəlif olduğu qədər bəzən zəruridir.

**Məqalənin aktuallığı.** İnsanın sosializasiya prosesində sosiallaşması psixoloji mexanizmlərin köməyi sayəsində baş verir. yəni insan cəmiyyətdəki digər insanlarla şəxsiyyətlərarası münasibətlərə daxil olur, birgə fəaliyyət göstərir, sosiallaşaraq identifikasiya olur.

**Məqalənin elmi yeniliyi.** Məqalədə sosializasiya prosesində şəxsiyyətin sosial-psixoloji və sosial-pedaqoji mexanizmləri araşdırılmış və ona münasibət bildirilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbələr, magistrantlar və doktorantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Мухина В.С. Личность: мифы и реальность. М., 2010.

2. Мудрик А.В. Социализация человека: учебное пособие. М.: Изд-во центр "Академия", 2004.

3. Горбунова М.Ю. социальная психология. М.: Изд-во ВЛАДОС-ПРЕСС, 2006.

4. Мананикова Е.Н. Социальная психология: Учебное пособие М.: Издательско-торговая корпорация "Дашков и К", 2009.

**М.Исмаилова**

## Психологические механизмы социальности личности в процессе социализации

## Резюме

В научной статье свое отражение нашли различные подходы к социально – психологическим механизмам социализации личности. Автором последовательно изложены психологические механизмы социальности личности в процессе

социализации. В научной статье также приведен анализ классификаций ученых, связанных с психологическими механизмами социальности.

**M. Ismayilova**

## Psychological mechanisms of socialization of personality in the process of socialization

### Summary

It has been reflected different approaches to socio-psychological mechanisms of socialization of personality in the scientific article. It has been commented psychological mechanisms of socialization of personality consistently by author in the process of socialization. In the scientific article has been given analysis of classification of scientists about psychological mechanisms of socialization.

**Redaksiyaya daxil olub:** 02.11.2018